***ALİ MƏKTƏB PEDAQOGİKASI***
***PEDAGOGY OF HIGHER EDUCATION***
***ПЕДАГОГИКА ВЫСШЕЙ ШКОЛЫ***

*UOT 378: 001.891*

***Lalə Arif qızı Əbilova***
*Azərbaycan Dillər Universitetinin*
*Pedaqogika və psixologiya kafedrasının müəllimi,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0009-0006-3967-168X*
*E-mail: abilzade.guler@gmail.com*
*https://doi.org/10.69682/arti.2026.93(3).163-167*

## AİLƏ-MƏKTƏB ƏMƏKDAŞLIĞININ MÜASİR MODELİ

***Lala Arif Abilova***
*teacher of the department of Pedagogy and Psychology*
*of Azerbaijan University of Languages, doctor of philosophy in pedagogy*

## A MODERN MODEL OF FAMILY-SCHOOL COOPERATION

***Лала Ариф гызы Абилова***
*преподаватель кафедры Педагогики и психологии*
*Азербайджанского Университет Языков, доктор философии по педагогике*

## СОВРЕМЕННАЯ МОДЕЛЬ СОТРУДНИЧЕСТВА СЕМЬИ И ШКОЛЫ

**Xülasə.** Müasir dövrdə gənc ailələrin dünyagörüşünün və sosial dəyərlərə münasibətinin dəyişməsinin ibtidai sinif şagirdlərinin tərbiyəsində müəyyən çətinliklərin yaranmasına səbəb olur. Bütün bunlara səbəb isə hazırda cəmiyyətdə baş verən sosial və mədəni dəyişikliklərin ailə institutunun tərbiyəvi roluna birbaşa təsir göstərməsidir. Xüsusilə gənc ailələrin dünyagörüşünün və cəmiyyətə baxış tərzinin dəyişməsi uşaqların tərbiyə prosesində yeni problemlərin yaranmasına səbəb olur. Bu dəyişikliklər bəzi hallarda ibtidai sinif şagirdlərinin davranışına, mənəvi dəyərlərə münasibətinə və sosial adaptasiyasına mənfi təsir göstərir. Məqalədə müasir təhsil sistemində ailə - məktəb əməkdaşlığının rolu və əhəmiyyəti təhlil olunur. Xüsusilə ibtidai təhsil mərhələsində ailə və məktəb arasında qurulan qarşılıqlı münasibətlər şagirdlərin təlim nailiyyətlərinə, sosial davranışlarının formalaşmasına və şəxsiyyət kimi inkişafına mühüm təsir göstərir. Məqalədə ailə - məktəb əməkdaşlığının pedaqoji mahiyyəti açıqlanmış, müasir modellərin əsas xüsusiyyətləri sistemləşdirilmiş və onların təhsil prosesinə verdiyi töhfələr elmi baxımdan əsaslandırılmışdır.
***Açar sözlər*: *Ailə - məktəb əməkdaşlığı, ibtidai təhsil, müasir təhsil modelləri, valideyn-müəllim əməkdaşlığı, şagirdlərin inkişafı, şəxsiyyət, müasir təhsil modelləri, sosial davranış***

**Abstract.** In modern times, the change in the worldview and attitude of young families to social values causes certain difficulties in the upbringing of primary school students. The reason for all this is that the social and cultural changes currently taking place in society directly affect the educational role of the family institution.The change in the worldview and the way of looking at society, especially among young families, leads to the emergence of new problems in the process of raising children. These changes in some cases negatively affect the behavior, attitude to moral values, and social adaptation of primary school students. The article analyzes the role and importance of family-school cooperation in the modern education system. The mutual relations established between family and school, especially at the primary education stage, have a significant impact on students' academic achievements, the formation of their social behavior, and their development as individuals. The article explains the pedagogical essence of family-school cooperation, systematizes the main features of modern models, and scientifically substantiates their contributions to the educational process.
***Keywords*: *Family-school cooperation, primary education, modern educational models, parent-teacher cooperation, student development, personality, modern educational models, social behavior***

**Аннотация.** В современную эпоху изменение мировоззрения и отношения молодых семей к социальным ценностям создает определенные трудности в воспитании учеников начальных классов. Причина всего этого заключается в том, что происходящие в обществе социальные и культурные изменения напрямую влияют на воспитательную роль института семьи. Изменение мировоззрения и социальных взглядов, особенно у молодых семей, создает новые проблемы в процессе воспитания детей. Эти изменения порой негативно сказываются на поведении, отношении к моральным ценностям и социальной адаптации учеников начальных классов. В статье анализируется роль и значение сотрудничества семьи и школы в современной системе образования. Взаимоотношения, устанавливающиеся между семьей и школой, особенно на этапе начального образования, оказывают существенное влияние на успеваемость учащихся, формирование их социального поведения и развитие как личностей. В статье разъясняется педагогическая сущность сотрудничества семьи и школы, систематизируются основные особенности современных моделей и научно обосновывается их вклад в образовательный процесс.

***Ключевые слова***: *сотрудничество семьи и школы, начальное образование, современные образовательные модели, сотрудничество родителей и учителей, развитие ученика, личность, современные образовательные модели, социальное поведение*

## Giriş

Müasir cəmiyyətin sürətlə dəyişən sosial-mədəni şəraiti ailənin tərbiyəvi funksiyalarına yeni məzmun gətirmişdir. Bir çox hallarda valideynlərin pedaqoji biliklərinin kifayət qədər olmaması, ailədaxili ünsiyyətin azalması və məktəblə qarşılıqlı əlaqənin sistemli şəkildə təşkil edilməməsi ibtidai sinif şagirdlərinin təlim nəticələrinə və sosial inkişafına mənfi təsir göstərir.

Müasir dövrdə cəmiyyətin sosial, mədəni və texnoloji inkişafı ailə institutunun qarşısında yeni və daha mürəkkəb tərbiyəvi vəzifələr qoyur. Qloballaşma, informasiya bolluğu, rəqəmsal texnologiyaların gündəlik həyata sürətli inteqrasiyası kiçik yaşlı məktəblilərin tərbiyəsinə birbaşa təsir göstərir. Bu şəraitdə uşaqların şəxsiyyətinin sağlam formalaşması, milli-mənəvi dəyərlərə sadiq, sosial cəhətdən fəal fərd kimi yetişdirilməsi ailənin tərbiyə prosesində rolunun daha dərindən araşdırılmasını zəruri edir. Çünki bu gün ailədaxili münasibətlərdə baş verən konfliktlər, boşanma halları, eləcə də milli-mənəvi dəyərlərin get-gedə itirilməsi cəmiyyət üçün həyəcan siqnalı verməkdədir.

Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020 - 2023-cü illər üçün Milli Fəaliyyət Planı"nda [11] ailə dəyərləri, reproduktiv sağlamlıq və ailə planlaşdırılması ilə bağlı mövzuların ümumi təhsil üzrə müvafiq dərsliklərə daxil edilməsi əks olunub. Əsas məqsəd ölkədə məişət zorakılığının qarşısının alınması üzrə tədbirlərin beynəlxalq standartlara uyğunlaşdırılması, ailələrin möhkəmləndirilməsi naminə onların vaxtında və hərtərəfli yardımla təmin edilməsi, məişət zorakılığı ilə mübarizə sahəsində normativ hüquqi aktlarda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi və səmərəliliyinin artırılmasından ibarət olan sənədin icrası təhsil və səhiyyə nazirliklərinə tapşırılıb.

Müasir dövrdə gənc ailələrin dünyagörüşünün, cəmiyyətə baxış tərzinin dəyişməsi onun yeni prizmadan tədqiq olunmasını zəruri hesab edir. Bu da aydındır ki, bu günün ailəsi artıq 10-20 il bundan əvvəlki ailələrdən fərqlənir. Cəmiyyətdə gündən-günə baş verən dəyişikliklər, cəmiyyətin mikrohissəsi olan ailənin münasibətlər sistemində ortaya çıxan sosial sifarişlərini dəyişdirir.

Müasir təhsil sistemində ibtidai təhsil mərhələsi kiçikyaşlı məktəblinin şəxsiyyətinin əsas xüsusiyyətlərinin formalaşdığı mühüm inkişaf dövrü kimi xarakterizə olunur. Bu mərhələdə şagirdlərin təlimə münasibəti, idraki fəallığı, sosial davranışları və emosional sabitliyi ailədə formalaşmış ilkin tərbiyə təcrübəsi ilə sıx bağlıdır. Ailə uşağın məktəb mühitinə uyğunlaşmasında və təlim fəaliyyətinin səmərəliliyinin təmin olunmasında həlledici rol oynayır. Müasir dövrdə təhsil yalnız məktəbdə baş verən proseslərlə məhdudlaşmır, ailə mühiti ilə sıx qarşılıqlı əlaqədə formalaşır. Ailə uşağın ilk sosial mühiti olmaqla onun dünyagörüşünün, davranış normalarının və dəyərlərinin formalaşmasında əsas rol oynayır. Məktəb isə bu ilkin tərbiyəvi təsiri sistemləşdirərək elmi biliklər və sosial bacarıqlarla zənginləşdirir.

Ümumiyyətlə, ailə – məktəb əməkdaşlığının müasir modeli demokratikliyi, humanistliyi və müasirliyi ilə diqqəti cəlb edir.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda uşaqlara münasibətdə ailə və mək-təbin qarşısına aşağıdakı vəzifələr qoyulur:

– uşaqların fiziki və psixi sağlamlığının qayğısına qalmaq;

– uşaqların fitri istedadlarının və təbii imkanlarının inkişafını təmin etmək;

– uşaqların şəxsiyyətinə hörmət etmək;

– uşaqlara Vətənə, dilinə, tarixinə, xalqına, soykökünə, ümumbəşəri dəyərlərə və insan hüquqlarına hörmət hissi aşılamaq [2].

İbtidai sinifdə müəllim və valideynlərin əməkdaşlığı xüsusi əhəmiyyət kəsb edir. Çünki bu mərhələdə uşaq hələ də ailəsi ilə çox sıx bağlı olur. Bu dövrdə uşaq öz davranışına nəzarət etməkdə çətinlik çəkir.

Müəllim və valideynlərin əməkdaşlığı zamanı, əsasən, son illərə kimi ənənəvi formalarından istifadə olunurdu. Hazırda isə ənənəvi iş formaları ilə yanaşı, həm də qeyri-ənənəvi iş formaları həyata keçirilir. Qeyri-ənənəvi formalar, dedikdə, yeni modellər (onlayn məsləhətləşmələr, onlayn müzakirələr, onlayn sinif iclaslarının keçirilməsi və s.) nəzərdə tutulur. Valideynlər onlayn şəkildə övladlarının təhsil aldığı məktəbdə təlim-tərbiyə prosesinin təşkili ilə tanış olur, müəllimlərlə əlaqə saxlayır və övladlarının təhsili ilə əlaqədar fikir mübadiləsi aparırlar [3,20-24].

Müəyyən prinsiplərin nəzərə alınması müəllim – valideyn əməkdaşlığında nəticələrin səmərəli olmasına gətirib çıxarır. Müəllim – valideyn əməkdaşlığının prinsipləri qarşılıqlı əlaqənin təşkili formalarını (kütləvi, qrup, fərdi) və metodlarını (mühazirə, müsahibə, məsləhətləşmə, müzakirə, disput, treninq və s.) müəyyən edən başlıca müddəalardır. Bu prinsiplər tərbiyə prosesinin prinsipləridir. Müəllim və valideynlər arasındakı qarşılıqlı əlaqə prinsiplərini aşağıdakı kimi müəyyənləşdirmək olar:

– tərbiyəvi təsirlərdə vahidlik;
– müsbət cəhətlərə istinad etmək (nikbinlik);
– fərdi yanaşma;
– subyektivlik;
– şəxsiyyətlərarası münasibətlərin humanistləşdirlməsi.

Tərbiyə prosesində olduğu kimi, müəllim – valideyn əməkdaşlığında da yuxarıda qeyd olunan prinsiplərin tətbiqi kompleks xarakter daşımalı, vəhdətdə çıxış etməlidir.

Müasir dövrdə müəllim – valideyn əməkdaşlığının nəticələrinin səmərəli olması optimal metodların tətbiqindən də çox asılıdır. Müəllim – valideyn əməkdaşlığında daha çox mühazirə, müsahibə, məsləhətləşmə, müzakirə, disput və treninq kimi metodlardan istifadə olunur. Seçilən metodun müəllim – valideyn əməkdaşlığının formasına (kollektiv, qrup, fərdi) uyğunluğu onun səmərəliliyini təmin edir.

Profeessor A.N. Abbasov ailə pedaqogikasının tədqiqat metodlarını belə müəyyənləşdirir:

1) pedaqoji ədəbiyyatla, ailə tərbiyəsinə həsr olunmuş əsərlərlə tanış olmaq;
2) müşahidə metodu;
3) müsahibə metodu;
4) ailədə uşaqların yaradıcılıq məhsullarının öyrənilməsi metodu;
5) pedaqoji eksperiment metodu;
6) reytinqin öyrənilməsi metodu;
7) sosiometriya metodu;
8) modelləşdirmə metodu [1, s. 78].

Yuxarıda adları qeyd olunan metodların bəzilərini olduğu kimi göstərən N. Çələbiyev isə, həmin metodların sırasına diaqnostik metodları, testləri, anket sorğuları metodunu, konkret vəziyyətlərin təhlili metodunu, statistik metodları da daxil edir [5,34].

Ailə – məktəb əməkdaşlığı uşağın təlim-tərbiyə prosesində vahid yanaşmanın formalaşdırılmasına xidmət edir. Bu əməkdaşlıq valideynlərin təhsil prosesinə cəlb olunmasını, müəllimlərin isə ailənin tərbiyə imkanlarını nəzərə almasını təmin edir. Pedaqoji baxımdan ailə-məktəb əməkdaşlığı aşağıdakı məqsədlərə xidmət edir:

– Şagirdin fərdi xüsusiyyətlərinin daha dərindən öyrənilməsi;
– Təlim və tərbiyədə ardıcıllığın təmin olunması;
– Şagirdin sosial və emosional inkişafının dəstəklənməsi;
– Məktəbə və təlim fəaliyyətinə müsbət münasibətin formalaşdırılması.

Bu əməkdaşlıq nəticəsində məktəb - ailə arasında qarşılıqlı etimad və məsuliyyət mühiti ibtidai təhsil mərhələsində isə ailə - məktəb əməkdaşlığı xüsusilə aktualdır. Bu mərhələdə şagirdlərin psixoloji xüsusiyyətləri, təlimə uyğunlaşma səviyyəsi və emosional vəziyyəti ailə və məktəbin birgə fəaliyyətini zəruri edir. Təhsil sistemində baş verən innovativ dəyişikliklər ailə – məktəb əməkdaşlığının müasir modellər əsasında yenidən qurulmasını tələb edir. Ailə - məktəb əməkdaşlığı uşağın təlim-tərbiyə prosesində vahid yanaşmanın formalaşdırılmasına

xidmət edir. Bu əməkdaşlıq valideynlərin təhsil prosesinə cəlb olunmasını, müəllimlərin isə ailənin tərbiyə imkanlarını nəzərə almasını təmin edir. *Müasir dövrün tələbləri müəllimlərin üzərinə ciddi vəzifələr qoyur. Şagirdlərin ehtiyaclarını müəyyənləşdirmək və buna uyğun düzgün təhsil proqramı seçmək üçün ailənin məktəblə sıx əlaqəsi vacibdir.*

Müasir təhsil yanaşmaları ailə – məktəb əməkdaşlığını yalnız məlumatlandırma ilə məhdudlaşdırmır, onu aktiv tərəfdaşlıq səviyyəsinə qaldırır. İbtidai təhsil kontekstində aşağıdakı müasir modellər daha geniş tətbiq olunur:

1. Tərəfdaşlıq modeli – Bu modeldə ailə və məktəb uşağın inkişafında bərabər məsuliyyət daşıyan tərəfdaşlar kimi çıxış edir. Valideynlər təlim prosesində passiv müşahidəçi deyil, fəal iştirakçı rolunu oynayırlar.

2. Rəqəmsal əməkdaşlıq modeli – Elektron gündəliklər, onlayn platformalar və mobil tətbiqlər vasitəsilə valideynlərlə müəllimlər arasında operativ əlaqə yaradılır. Bu model məlumat mübadiləsini sürətləndirir və əməkdaşlığın davamlılığını təmin edir.

3. Ailəyönümlü pedaqoji yanaşma – Bu model ailənin sosial-mədəni xüsusiyyətlərini və tərbiyə potensialını nəzərə alaraq təlim-tərbiyə prosesinin təşkili ilə xarakterizə olunur. Müəllim ailənin imkanlarına uyğun fərdi yanaşmalar formalaşdırır.

4. Məktəb-ailə-icma modeli – Bu model məktəbin ailə və yerli icma ilə birgə fəaliyyətini əhatə edir. Birgə tədbirlər və layihələr şagirdlərin sosial fəallığını və vətəndaşlıq tərbiyəsini gücləndirir.

Ailə – məktəb əməkdaşlığının müasir modelləri ibtidai sinif şagirdlərinin təlimə marağını artırır və onların davranışında müsbət dəyişikliklər yaradır. Valideynlərin təhsil prosesində tətbiq olunması məktəblinin özünəinamını gücləndirir və onlarda məsuliyyət hissini formalaşdırır.

Bununla yanaşı, müasir əməkdaşlıq modelləri müəllimlərin pedaqoji fəaliyyətini daha məqsədyönlü edir, təlimdə fərdiləşdirilmiş yanaşmanın tətbiqinə imkan yaradır və yarana biləcək problemlərin vaxtında aşkarlanmasını və aradan qaldırılmasını təmin edir.

Problemlə bağlı bir sıra xarici ölkələrin müsbət, faydalı iş təcrübəsinə də nəzər salaq:

Amerika Birləşmiş Ştatlarında məktəb-valideyn və cəmiyyət münasibətləri mühüm amillərdən hesab olunur. Bu məqsədlə ölkədə valideyn-məktəb dərnəkləri yaradılıb. Həmin dərnəklər isə milli valideyn-müəllim dərnəkləri konfederasiyasına tabedir. Dərnəklərin fəaliyyətinin əsas məqsədi təhsilin keyfiyyətinin yüksəldilməsidir. ABŞ-da şagirdlərə pedaqoji rəhbər təyin edilməsi üçün valideynlərə xüsusi təhsil verilir. Bu isə özlüyündə "yalnız savadlı valideynlər bilikli rəhbəri seçə bilərlər" anlamı daşıyır. Həmçinin, şagirdlərin sağlam yetişdirilməsi üçün ailə dərnəkləri də fəaliyyət göstərir.

Türkiyədə ailə-məktəb əməkdaşlığının müasir modeli demokratiklik, humanistlik və rəqəmsallaşma prinsiplərinə əsaslanır. Bu modeldə valideynlər təhsil prosesinin passiv müşahidəçisi deyil, "Ailə Akademiyaları" və rəqəmsal platformalar (məsələn, e-Okul) vasitəsilə aktiv iştirakçılarıdır. Əsas fokus şagirdin hərtərəfli inkişafı, ailə-müəllim şəffaflığı və peşə təhsilində istehsalatla inteqrasiyadır. Türkiyədə valideyn-müəllim əlaqələrinə xüsusi əhəmiyyət verilir. Bunun üçün ildə iki dəfə valideyn-müəllim görüşü təşkil edilir, bu görüşlərdə şagirdlər iştirak edə bilməz. Görüş öncədən müəyyənləşən vaxtda və məktəbdəki sinif otaqlarının birində baş tutur. Hər valideyn övladının müəllimləri ilə 2, yaxud 3 dəqiqə müddətində təkbətək söhbət edir. Digər valideynlər də həmin söhbət zamanı sinifdə ola bilərlər. Görüş zamanı şagirdlə bağlı fikir mübadiləsi aparılır və ayda bir dəfə də olmaqla müəllim-şagirdin fərdi, ayda 2 dəfə isə şagird-valideyn-müəllimin üçtərəfli görüşü təşkil edilir.

**Nəticə.** Beləliklə, ailə – məktəb əməkdaşlığının müasir modelləri ibtidai təhsil sistemində təlim-tərbiyə prosesinin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Ailə və məktəbin qarşılıqlı və sistemli fəaliyyəti şagirdlərin hərtərəfli inkişafına, məktəb mühitinə uğurlu adaptasiyasına və müsbət sosial davranışların formalaşmasına, təlim – tərbiyə prosesinin daha səmərəli və məqsədyönlü təşkilinə şərait yaradır.

Bu baxımdan ibtidai sinif müəllimlərinin valideynlərlə əməkdaşlıq bacarıqlarının inkişaf etdirilməsi və innovativ yanaşmaların təhsil praktikasına inteqrasiyası mühüm pedaqoji vəzifə kimi qiymətləndirilməlidir.

**Problemin aktuallığı.** İbtidai təhsil mərhələsində ailənin tərbiyə imkanlarından məqsədyönlü istifadə olunması şagirdlərdə məsuliyyətli münasibətin, müstəqil düşünmənin, sosial bacarıqların və müsbət mənəvi keyfiyyətlərin formalaşmasına şərait

yaradır. Buna görə də ailənin ibtidai təhsildə yeri və funksiyalarının tədqiqi, mövcud problemlərin müəyyənləşdirilməsi və onların həlli yollarının göstərilməsi aktual pedaqoji problem kimi xüsusi əhəmiyyət kəsb edir.

**Problemin elmi yeniliyi**. Məqalənin elmi yeniliyi ailə – məktəb əməkdaşlığının ibtidai təhsil kontekstində müasir pedaqoji yanaşmalar əsasında sistemli model kimi təhlil edilməsindən ibarətdir. Məqalədə valideynlərin təlim-tərbiyə prosesində aktiv tərəfdaş kimi rolu əsaslandırılır, eləcə də ailə - məktəb əməkdaşlığının şagirdin sosial və akademik inkişafına təsiri yeni baxış bucağından şərh olunur.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalənin praktik əhəmiyyəti ibtidai sinif müəllimləri və məktəb rəhbərləri üçün ailə - məktəb əməkdaşlığının təşkili istiqamətində metodik tövsiyələrin verilməsindən ibarətdir. Tədqiqat nəticələri valideynlərlə işin səmərəliliyinin artırılmasında və şagirdlərin təlim motivasiyasının gücləndirilməsində tətbiq oluna bilər.

## Ədəbiyyat


1. Abbasov A. Ailə pedaqogikası. –Bakı: Mütərcim, –2019. –270 s.
2. "Azərbaycan Respublikasının Təhsil Qanunu" Bakı, 19 iyun, 2009-cu il // Təhsil xəbərləri. –2009 -cu il, №6, –s.12-57.
3. Baxışova Ş. Uşaqların inkişafında valideynlərlə əlbir işin yolları // Bakı: Məktəbəqədər və ibtidai təhsil, –2015. №3, –s.20-24
4. İlyasov İ.İ. Müəllim səriştəliliyi şagird şəxsiyyətinin inkişaf etdirilməsinin mühüm amili kimi //– Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2024. № 2, –s.16-19.
5. Çələbiyev N. Ailə psixologiyası. –Bakı: Mütərcim, –2015. – 422 s.
6. Quliyeva S. Azərbaycanda ailə-məktəb əməkdaşlığının formalaşdırılması modelləri // Bakı: Məktəbəqədər və ibtidai təhsil, –2020, № 3, –s. 67-80
7. Əhmədova N. Şagirdlərin öyrənmə fəaliyyətinin inkişafında məktəb mühitinin rolu// Bakı: Təhsil İnstitutunun Elmi əsərləri, –2025, №5, –s.66-70
8. Məmmədova K. Müasir dövrdə məktəbəqədər təhsilin keyfiyyətinin yüksəldilməsinə valideynlərlə əməkdaşlığın təsiri // –Bakı: Təhsil İnstitutunun Elmi əsərləri, – 2025, №5, –s.190-197
9. Пузырева О. И. Совместная работа школы, семьи и общины по обучению и воспитанию сельских школьников в США: Дис. ...канд. пед. наук:13. 00.01 : –Москва, 2005, –260 с.
10. How Family Engagement Leads to Student Success. https://www. waterford. org/education/how; 7 july 2022.https://e-qanun.az › framew


**Redaksiyaya daxil olub:** 29.04.2026